

VAQİF OSMANOV

# ÖLÜLƏRLƏ SÖHBƏT

*Poema*

***Allah sənə rəhmət eləsin, dahi Mirzə Cəlil.***

## I söhbət

O dünyanın ölüləri,
Ağıllısı, dəliləri,
Görən siz də bizim kimi
Haram yolla qazanılan sərvət üçün,
Sərhədləri bilinməyən rüşvət üçün
Ölürsünüz?
Məzarları hissə-hissə,
Addım-addım, əl-ayağı əsə-əsə,
Məzlumların ümidini,
Mal-mülkünü kəsə-kəsə,
O qonşuya, bu qohuma,
O nəsilə, bu toxuma,
O şəhərə, bu rayona,
O mahala, regiona,
O tayfaya, bu klana
Bölürsünüz?
Sizin də kor tamahınız,
ac gözünüz acdımı?
Yoxsa kimsə üsyan edib,
O dünyadan bizə pənah gətirdimi,
Zülm əlindən qaçdımı?
Sizin də dözüm xəmiriniz səbirdənmi yoğrulur?
Deyirlər ki, bizdən fərqli olaraq
Sizə zülm edənlər
Cəhənnəmin alovunda qovrulur?
Deyirlər ki, orda daha zalım olmur, zülüm olmur,
Zülm əliylə itim olmur, ölüm olmur.
Olursa da haqsızlığa dözüm olmur,
İnsanları çeşid-çeşid bölüm olmur.
Niyə fağır deyilsiniz bizim kimi,
Hardan tapaq biz mübarizə cürətini,
Azğınlara asi olmaq qüdrətini?
Ona görəmi orda qisas qiyamətə qalmır?
Yoxsa orda da zülmkara söz deyən az?
Hər şey harama qarışıb,
Halal çörək yeyən az?
Bizim ah-naləmiz sonsuz göyə dirənir.
Sizinki hara -
Para - para torpaqlara,
Qara - qara məzarlara?..

## II söhbət

O dünyanın ölüləri,
Ağıllısı, dəliləri,
Sizin məzar evləriniz,
Azad, gülzar evləriniz
Bu dünyanın torpaqları,
Ağacları, yarpaqları,
Dənizləri, dağları,
Meşələri, bağları,
Elit məzarlıqları...
Kimi çəpərlənib, hasarlanıbmı?
Sizdə də məsum, günahsız gəlinlər,
Övlad həsrətli, pənahsız gəlinlər,
Bərəkətli torpaqlar
Qısırlanıbmı?

Görən siz də bizim kimi
Torpaq altda, sərvət üstə,
Adicə bir söhbət üstə
Atanızı, ananızı,
Qonşunuzu, doğmanızı
Baltalayırsınızmı?
Vətəndaşı ədalətsiz qanunlarla
Xaltalayırsınızmı?..

## III söhbət

O dünyanın olüləri,
Ağıllısı, dəliləri,
Xəbəriniz varmı, hər gün çoxalır
Nadan dünyamızın şeyx Nəsrullahları,
Ölüvay dirilərin fəryadları, ahları.
Dirilmək istəməyin, rahat yatın siz,
Dözə bilməzsiniz sitəmlərinə bu həyatın siz.
Mollalar hamısı olub vəzirlər,
Kefli İsgəndərlər kefsiz gəzirlər.
Balaca Nazlılar, uşaq Nazlılar,
İsmət yükü çəkmir, parabazdılar.
Şeyx Nəsrullahlar Nazlılar ilə
Barda əylənirlər - başı dumanlı,
Nazlılar sevişir qazlılar ilə,
Nəyinə lazımdı kasıb təmiz vicdanlı?
Doğru danışanın qolları bağlı,
Simasız yaltağın dodağı yağlı.
Bizdə Əzrayılın kreslosu var,
Varlı ölünün də şefi, bosu var.
Həsədlə baxırıq varlı ölənə,
Yeddiqat söyürük dünya bölənə...

## IV sohbət

O dünyanın ölüləri,
Ağıllısı, dəliləri,
Gülməyin, nə olar suallarıma,
Şübhəniz olmasın ağıl varıma.
İşləyirmi sizdə məclis,
Saxlayırmı ölü pəhriz?
İnanın, əyləşsəniz məclisimizdə
O qədər gülərsiniz,
Yenidən ölərsiniz.
Məclisimiz qalstuklu, sürməli,
Qrimli artistlərin qurduğu, oynadığı
Ağlamalı, gülməli,
Tamaşadır, tamaşa.
Baxan kimdi ağıla, düşüncəyə, ya başa.
Pambıqla baş kəsməni
Bəh-bəhlə imzalayır məclislərin vəkili,
Seçici gözünə millər çəkilir.
Özünə yad bilir səs verən kəsi,
Mikrofon görəndə boğulur səsi.
Ya tərif yağdırır mandat verənə,
Ya da söyüş söyür haqqı görənə.
Biri deyirdi: - Bu xalq "otxod"du,
Bilirdi ki, söysə işi "xod"du.
Biri deyir: - Soğan ək, qazan,
Ay səni, qanun yazan...
Biri deyir: - Yorğanın qısadı
Ayaqlarını yığ, uzan.
Bir "ağsaqqal" da deyir:
-Ay müəllim, boş vaxt tapsan,
Get karxanaya, daş at,
Övladlarını yaşat.
Ay səni, qanun yazan...
"Ağsaqqal"ın xəbəri yox elmdən,
Müəllim əməyindən,
Alimin mürəkkəbindən,
Aqilliyin həbindən.
Bir "mələksima" da yengəlik edir,
Düşüb qabağa,
Deyir: - Qoyaq qadağa,
Analar çox uşaq doğmasın, bəsdi,
Büdcə talamaqdı onların qəsdi...
Sizdə də beləmi qanun yazanlar,
Çoxmu, mikrofonla qəbir qazanlar?..

## V söhbət

O dünyanın ölüləri,
Ağıllısı, dəliləri,
Bilirsinizmi?
Qana həris vampir kimi
Millətin qanını sorur məmurlar,
Ah-vaydan həzz alır xalqın hakimi,
Gündə bir xaniman qurur məmurlar.
Sərhəd yaradlıb Araza bənzər,
Artıq hasarlanıb mavigöz Xəzər.
Qanunlar yazanlar biznesmendilər,
Var-dövlətin qızıl yallı kəhərini
Səngər qoxusu biməyən
"Ağ oğlan"lar mindilər.
Ağ kəhərli oğlanların
"Laçın"ları, "Şuşa"ları, "Amay"ları,
"Xankəndi"si, "Qubadlı"sı, "Humay"ları,
"Xarıbülbül", "Sarı gəlin" sarayları,
"Xan qızı" var, "Xan bağı" var,
Toxunulmaz "Cənnət bağı",
"Şahdağı" var.
Eşidilmir saraylardan elin ahı,
Hər gün, hər an ucuzlaşır yaşamağı,

Manat olur qara şahı.
Xəbəriniz varmı bizdən,
Bizim Vətən evimizdən?..

## VI söhbət

O dünyanın ölüləri,
Ağıllısı, dəliləri,
Bilirsinizmi, toy evinə bənzədirəm
İndiki yas məclisini.
Eşidib "Amin!" deyən,
Mənasını bilən yoxdu
"Fatihə"nin, "Yasin"in.
Ordan-burdan söhbətlər,
Dedi-qodu, qeybətlər,
Düyanın siyasi mənzərəsi -
Analitik təhlillər,
Etirazlar, tətillər
Hərənin öz arşınıyla ölçülür,
Lap siyasi icmalçı diliylə çözülür.
"Mərasim icmalçı"ları
Siyasi biliyini göstərmək üçün
Növbəyə düzülür.
Ölü qalıb bir yanda,
Gözlər qabda, qazanda,
Naz-nemət öz yerində,
Sanki toydu - düyündü,
Yemək löyün - löyündü.
Molla öz alverində -
Haqq-hesaba vurulur
Mollanın hər kəlməsi,
"Quran"ın hər ayəsi.
Sizə pənah gətirənlər -
Mollanın sərmayəsi.
Nəfsimizə uduza-uduza,
Kef çəkirik sizin hesabınıza...

## VII söhbət

O dünyanın ölüləri,
Ağıllısı, dəliləri,
Yadımdan çıxmamış soruşum sizdən,
Orda işıq pulu, qaz pulu varmı?
Nişan, toy nəməri, yas pulu varmı?
Sizdə işləyirmi Tarif Şurası?
Qalxırmı qiymətlər gecə yarısı?
Varmı orda kasıblara tələ quranlar,
Qəfil, gözlənilməz şillə vuranlar?
Xəncərlə yox, pambıqla yox,
Dollar ilə kəsirlər başını
Günü qara millətin,
Deyirlər, ancaq bizdədir
"Yaşıl" kağızla baş kəsmək adəti.
"Qara qızıl" qara günə qoydu bizi,
Ucuzlaşdı, bahalaşdı,
İsitmədi qəlbimizi.
Elə ki, ucuzlaşdı,
Quduzlaşdı
Pula həris boz məmurlar
Kasıbın son tikəsinə,
Qara, quru kökəsinə
Yalquzaqtək cumurlar.
Dişlərini qıcayırlar,
Pələng kimi sıçrayırlar
Vətənin hər sərvətini talamağa,
Varı vara calamağa.
Sərvət görəndə sizin də
Gözləriniz bərəlirmi?
Dişinizin arasından
Boz-bulanıq su gəlirmi?
Yox, inanmıram,
Siz bizdən tox olarsınız,
Mərhəməti, səxavəti çox olarsınız...

## VIII söhbət

O dünyanın ölüləri,
Ağıllısı, dəliləri,
Deyirlər, dünyanız yaraşıqlıdı,
Bizim dünyamızdan çox işıqlıdı.
Vallah, işığımız kəsilir tez-tez,
Qaranlıq dünyanın sakiniyik biz.
İşığa qənimdi bihuş adamlar,
Yarasa adamlar, bayquş adamlar.
Hava bozardısa ev-eşik soyuq,
Qızmar yay gələndə
Boğucu cəhənnəm qucağındayıq.
Yayda su tapılmır, soyuq gündə qaz,
Su da, qaz da olub güzərana paz.
Yəqin gülürsünüz daş səbrimizə,
And içirəm qəbrinizə
Min əzabla,
İztirabla
Dostluq edən lal-kar -
Dinməz bəndələrik,
Dağ yükünü çəkə bilən,
Dincəlməyən, yorulmayan
Dözümlü nərik...
Görən Sizdə də varmı,
Əlləri qabarlılar,
Qul yoxsullar, şah varlılar,
Acgöz yeddi mədəlilər,
Nəfsi zədəlilər,

Ağıllını lağa qoyan beyni dazlar,
Sərvətbazlar,
Yırtıcı məmur sürüsü,
Doymamazlıq virusu,
Tamahı itilər,
İnsafı kütlər,
Ağaya sadiq mütilər,
Toxunulmaz bütlər,
Yarımmeymunlar, yarımadamlar,
Başdan ayağacan qarın adamlar?...

## IX söhbət

O dünyanın dəliləri,
Ağıllısı, dəliləri,
Deyirlər ki, çox humanist,
Ədalətli Ana Yasanız var.
Haqsızlığın qənimi
Dayaz səbir kasanız var.
Qanunları pozanlara,
Haqqa qəbir qazanlara,
Sifarişlə, qərəz ilə "iş" verən hakimlərə,
Hippokrat andını unudan
Cəlladsifət həkimlərə
Çox sərt, ciddi cəzanız var.
Qara qəpik qədər yoxdu
Bizim qanunların dəyəri.
Susuz torpaqlarda belə
Tamah cücərir, rüşvət göyərir.
Saralır hər gün istəyimiz, diləyimiz,
Al-əlvandı felimiz, kələyimiz.
Məharətlə bir-birimizə
Badalaq vururuq.
Gözəgörünməz hörümçək kimi
Hamıya tor qururuq.
Yellənir dar ağacında ilgəyimiz,
Cəlladın əlində parıldayır xəncər,
Boynumuz qıldan incə.
Eh, nə deyim?..
Əbədi yaşayacaqsınız,
Kefdəsiniz,
Nə yemək qayğınız var, nə geyim...
Bizsə burda
Dönmüşük ac qurda.
Yemək üçün, geyim üçün
Qırırıq bir-birimizi,
Hey söyürük, söydürürük sizləri -
Məzardakı ölülərimizi...
İt gününə qoymuşuq dirilərimizi...

## X söhbət

O dünyanın ölüləri,
Ağıllısı, dəliləri,
Darıxmağa qoymur bu dünya bizi,
Başımız qarışıb dərd-sərimizə.
Tanıya bilmirik yaxşını, pisi.
Təsir etmir şaxta, nə qızmar isti,
Gün-gündən bərkiyən qart dərimizə.
Uşaq dərdi, qoca dərdi,
Bayram dərdi, xonça dərdi,
Heyvan dərdi, yonca dərdi,
Yağıların tapdağında yetim qalan
Küskün həyət - baca dərdi,
Paltar dərdi, çörək dərdi,
Unudulub sızıldayan ürək dərdi.
Görən nədi günahımız,
Aşıb-daşan gur sevincə
Həsrət qoydu pənahımız Tanrı bizi?
Nədən boğub üzümüzdə gülüşləri,
Qəlbimizdə səsimizi,
Qaqqıldayan dərd göndərdi?
Ayağımız çidarlıdı,
Əllərimiz qandallı,
İt ağzında çeynənib sanki
Ayağımızın sandalı.
Ömür yarı olmamış tökülürük, itirik,
Sürünə-sürünə altmışa yetirik,
Gücsüz yabıya dönürük,
Ləhləyə-ləhləyə təngnəfəs yeriyirik,
Ölüvay oluruq, sönürük
Sahibsiz it kimi.
Ayağımız yalın,
Səbrimizin gönü qalın.
Ağzımızda diş qalmayıb, mədəmizdə şirə,
Təqaüdün arpa dadını dadmayıb
Axsayırıq yorğun at kimi,
Yıxılırıq birdən-birə.
Dadlı-duzlu edib dərdlərimizi,
Darıxmağa qoymur bu dünya bizi...

## XI söhbət

O dünyanın ölüləri,
Ağıllısı, dəliləri,
Hər işə qadir Allah
Bu dünyada vermədi bizə sizdəki cənnəti,
Azadlığı, ədaləti,
Mərhəməti, səxavəti.
Qayğısız günlərinizə həsədlə baxırıq,
Bəlkə də sizi yandırıb - yaxırıq

Sağ qalmağımızla,
İşıqlı otağımızla,
Bəyaz yatağımızla.
Amma hardan biləsiniz?
Ömrü zorla qopararıq,
Qanlı savaş aparırıq
Əzrayıldan da əzazil
İblissifət mələksimalardan.
Hər iş tərs mütənasibdi -
Ömür azalır ilbəil,
Artır təqaüd yaşı.
Tapmırıq daha
Altmış beş yaşında, qohum-qardaşı.
Əzrayıl irişə-irişə
Kasıb qapısını çoxdan kəsibdi.
Adı qalıb sağlam ruhun, səhhətin,
Hər gün siçan oynayır içində
Ehtiyac adlı səbətin.
Söz vermişdim gələcəyəm yanınıza,
Ancaq gələ bilmirəm,
And içirəm gorunuza, ölü canınıza,
qalmışam naçar.
Adamın ölməyi gəlir, bir əmma var.
Yazığım gəlir məndən sonra qalan
oğul - uşağa, qohumlara, dostlara,
Olacaq onların günləri qara.
Kəfən pulu, ehsan pulu, qəbir pulu,
Bu dünyada hamı olub pulun qulu.
Qəbristanda gor yerləri
Karat - karat ölçülür,
Ölən ölmür, qohum ölür, qardaş ölür,
Dostlar ölür, mən öləndə -
Sizin yanınıza gələndə.
Bildinizmi, niyə ölmək istəmirəm? -
Qoy goruma söyməsinlər,
Gah başını, gah dizini döyməsinlər,
Deməsinlər, bizi zülmə saldı, getdi,
Nəyimiz var əlimizdən aldı, getdi.
Aldanmayın şeyx Nəsrullahlara,
Dirilib geri qayıtsanız
Görüb bəd xassəli min bir oyunu -
Mələklərin yasını, iblislərin toyunu,
Olacaqsınız bizim kimi günü qara.
Burda rüşvət umurlar
Nəinki ölüvay insanlardan,
Hətta ölü canlardan.
Qayıtmayın
Zorla canınızı qurtardığınız
Bərbad xanimanınıza.
Yazığınız gəlsin ölü canınıza.
Ədalətli dünyanızda rahat uyuyun,
Yaşamağın ləzzətini qəlbən duyun...

## XII söhbət

O dünyanın ölüləri,
Ağıllısı, dəliləri,
İndi sizin gördüyünüz dünya deyil,
Tərəqqimiz xidmət edir insanlığı əzməyə.
Yuxumuz da şirin dünya - röya deyil.
Mahir kəndirbaz olmuşuq,
Gecə-gündüz məşq edirik
Bir - birimizin sinir telləri üstə gəzməyə -
Əlimizdə dəyənək,
Belimizdə döyənək.
Uzaqgörən müdrik Sabir, Cavid,
Üzeyir bəy, Mirzə Cəlil.
Bildik niyə acı-acı, məlul-məlul
Gülürmüşlər
Nadanlığımıza,
Huşsuzluğumuza, unutqanlığımıza.
O dahilər bilirmişlər
Tərsinə dövran edəcək
Bizim çəxi-fələyimiz.
Çatmayacaq havamız,
Ağrıyacaq ürəyimiz
Bu fani dünyanın ağır yükündən.
Büküləcək belimiz,
Daşdan çıxacaq çörəyimiz.
Asılacaq taleyimiz
Bu gün əlçatmaz əfsanəyə çevrilən
Simurğun bircə tükündən.
Çörək dərdi çəkmirsiniz,
Yalana doğrudan pərdə çəkmirsiniz.
Biz burda Əzrayılın dəyirmanına
Həvəslə su tökürük,
Yaşamaq eşqli insanları
Sağ olsa da ağ kəfənə bükürük,
Ömürləri ilmə-ilmə sökürük.
Bizə həyat verən insanların,
Nəfəs verən yaşıl ağacların
"Uf" demədən, başını, kökünü kəsirik.
Nəfsə, sərvətə əsirik.
Genimizi dəyişmişik -
Çevrilmişik insanlığın saxtasına,
sünisinə.
Yerin, göyün, təbiətin günüsünə.

O dünyanın ölüləri,
Ağıllısı, dəliləri,
Əcəb azad ruhlarsınız,
Əbədi yaşarsınız,
Gətiribdi bəxtiniz...
Vallah, paxıllıq etmirəm,
Siz bizdən xoşbəxtsiniz...

*iyul 2016 - iyun 2018*